## Sahib İMANOV - 80

# MÜDRİK HƏKİMİN YAŞAYAN OBRAZI

*Hörmətli Əli Rza XƏLƏFLİ,*

*Feysbuk səhifəmdə məndən 10 yaş böyük qardaşım, ömrünün 49-cu ilində faciəli hadisə nəticəsində Allahın rəhmətinə qovuşan Sahib İmanov barədə yazımı Sizin rəyinizə rəğmən qəzetinizdə dərc olunması üçün təqdim edirəm.*

*Bilginiz üçün qeyd edirəm ki, mənim 12 yaşım olanda atamız dünyasını dəyişmişdi. Həyatımızın sonrakı dönəminin himayədarı və təminatçıları Anamız Dünyaxanım, böyük qardaşlarımız Əşrəf, Sahib (Allah onlara rəhmət eləsin!) və Hacı Beydulla olmuşdu. Bundan başqa, bacılarımız Hacı Xanımana və Zeynəb müəllim, məndən kiçik qardaşlarım Əlövsət və İbrahim - el-obada xeyirxah insan kimi tanınmış Niftulla kişinin bütün övladları böyüyə-kiçiyə əl tutmağı, xeyir əməllər sahibi olmağı həmişə özlərinin həyat kredosu sayıblar...*

*«Həkim-stomotoloq Sahib İmanov - 80» adlı yazını dərc etməyinizlə valideynərlimin (böyüklərimin) ruhu qarşısında bir vəfa borcunu vermiş olacağımı sanıram.*

*Hörmətlə:*

*Ənvər İMANOV,*
*dosent*





**Şəkildə soldan sağa:** *İbrahim Səfərov, Əlibaxış Kəlbiyev, Rafiq Həsənov və Sahib İMANOV.*

### *"Ömrün əziz illəri, Tələbəlik İlləri.."*

*S.İmanovun "Gündəliyin"dən*

Bizdən ayrı düşənlərə sonsuz ehtiram borcumuzun olduğunu bizdən əvvəlkilər də deyib. Düşünürəm ki, bizdən əvvəlkilərə ehtiramımız olmasaydı, onda varislik qırılardı. Şair doğru deyir:

*Bizdən ayrı düşənlər hörmətlə yad edilir,*
*Kimdən nələr qalıbsa, adına ad edilir.*
*Gündoğarda işıqlı simaların sayı çox,*
*Sayı çox olanların ziyasının payı çox.*

Dostum Əli Rza Xələflinin, zənnimcə, bu misraları çox yerindədir.

Bu ilin noyabr ayında həkim - stomotoloq, bacarıqlı səhiyyə təşkilatçısı Sahib Niftulla oğlu İmanovun doğum günüdür. Sahib həkim yaşasaydı 80 illik yubileyini özünün iştirakı ilə qeyd edəcəkdik.

Sahib İmanov 1942-ci ildə Salyan rayonunun Qırmızıkənd kəndində dünyaya göz açıb. İlk təhsilini Qırmızıkənd yeddiilik məktəbində başlayıb, orta təhsilini Şorsulu kənd tam məktəbində başa çatdırıb. Yeniyetməlik və gənclik illərində bədii yaradıcılıq və incəsənətin tətbiqi sahəsi-taxta üzərində naxışaçma ilə məşğul olub.

S.İmanovun qələmə aldığı, indiyədək heç yerdə çap olunmayan hekayə və povestlərində insanlar arasında munasibət, Azərbaycan torpağına, Kür çayına, Xəzər dənizinə, bir sözlə, doğma yurda və doğma insanlara bağlılıq, Vətən və İnsan sevgisi ön planda verilmişdi...

O, 1961-1964-cü illərdə Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olub, topçu batareyasına komandirlik edib. Bu dövrdə ordu həyatı barədə müxtəlif qəzetlərdə məqalələrlə çıxış edib, əsgər həyatı onun gələcək planlarının müəyyənləşməsində mühüm rol oynayıb; həkim olacağını qətiləşdirib. Hərbi hissənin komandanlığı S.İmanovu marağını nəzərə alaraq ali məktəbə qəbul imtahanlarında iştirak etmək üçün əsgərlik həyatını son aylarında vaxtından əvvəl Bakıya ezam edib. O, da öz növbəsində etimadı doğruldub, uğurlu qəbul imtahanlarının nəticələrinə əsasən Nəriman Nərimanov adına ADTİ-nin stomatologiya fakültəsinə qəbul olunub. Bununla əlaqədar Sahib İmanov orta məktəb illərindən qeydlər apardığı "Gündəliyi"nə: "Çoxdan bəri gözlədiyim gün gəlib çatdi. İndi mən tələbəyəm..." yazaraq sevincini ilk olaraq özü özü ilə bölüşüb. S.İmanov tələbəlik həyatında kamil həkim olmaq üçün əsas diqqətini təhsil almağa yonəldir. Eyni zamanda fakültə, institutun ictimai-elmi həyatında yaxından iştirak edir, tələbə elmi cəmiyyətində fəal iştirakı və çıxışları ilə yadda qalır, tələbə yoldaşları ilə dostluğun təməlinin qurulmasında, sonralar həmin dostluğun davamlılığının təşəbbüskarı və memarı oldu. Tələbəlik illəri geridə qaldı, S.İmanov Salyanın Xolqarabucaq kənd xəstəxanasında həkimlik fəaliyyətinə başladı. Tez bir zamanda səhiyyə ictimaiyyəti və əhali arasında işinin mahır mütəxəssisi kimi tanındı.

Sahib həkim 1973-cü ildə Salyan şəhərində yeni təşkil olunan Rayonlararası Stomotoloji Poliklinikaya baş həkim vəzifəsinə irəli çəkilib. Ömrünün sonuna - 1991-ci ilin dekabr ayının 9-dək həmin vəzifədə çalışıb. Qısa müddətdə stomatoloji poliklinikanın fəaliyyəti əhalinin diqqət-rəğbətini qazanıb. Sahib İmanov baş həkim kimi stomatoloqları "diş çəkən" həkimlikdən müasir stomatologiyanın bütün sahələri üzrə çalışan mütəxəssis nüfuzu qazanmasına nail olub. Stomatoloji poliklinikanın müasir tibbi avadanlıqlarla təhcizatından tutmuş, onun kəndlərdə şöbələrinin açılmasına, yerli birtipli layihə əsasında respublika rayonları sırasında indi də analoqu olmayan üçmərtəbəli poliklinika binasının tikintisinə qədər çoxsaylı təşəbbüslərin və həmin təşəbbüslərin icraçısı kimi qlobal işlərin öhdəsindən şəriştə ilə gəlib.

İşlədiyi müddətdə peşə-ixtisas təhsilini bir an da unutmayıb. Vaxtaşırı müxtəlif şəhərlərdə (Bakı, Moskva, Tbilisi, Leninqrad, Kiyev və s.) təkmilləşdirmə kurslarına gedib, stomatoloqların respublika, ümumittifaq və beynəlxalq simpoziumlarının iştirakçısı olub. Həmin dövr üçün yenilik olan dişlərin yenidən əkilməsi sahəsində elmi və praktik fəaliyyət göstərib..

S.İmanov eyni zamanda rayonun ictimai və siyasi həyatında daim yaxından iştirakı ilə fərqlənib. S.İmanov səhiyyə təşkilatçısı kimi keçmiş ittifaq miqyasında tanınıb.

O, işlədiyi müddətdə dəfələrlə rayon, respublika və ittifaq təşkilatları tərəfindən rəğbətləndirilib.

**Haşiyə:** Sahib həkimə ictimaiyyətin istəyi 1992-ci ildə ölümünün 1 illiyində hamımızı təsirləndirdi. Onun qurub yaratdığı stomatoloji poliklinikaya adının verilməsi barədə rayon sovetinin qərarı həmin gün elan edildi.

Sahib həkimin 80 illik yubileyində onun cismən yoxluğundan bir qərinəyə yaxın vaxt keçir. Bu müddətdə onun xatirəsi qədirbilən həmkarları, dostları, qohumları tərəfindən həmişə əziz tutulur.

Sahib İmanov təbiət etibarilə kövrək adam idi. Onun ruhunda, varlığında Azərbaycan təbiətinə sonsuz sevgi vardı. Hətta gündəliyində ölməz S.Vurğunun Kürün tərənnümünə həsr olunmuş misralarını oxuyanda bir daha kövrəldim:

*Kiçicik bir sudur Yer üzündə Kür,*
*Baxsan bu dünyanın xəritəsinə.*
*Bəs niyə qəlbində ümman döyünür,*
*Mən qulaq asdıqca Kürün səsinə?*



Onun sevinci olan qızları Lalə və Xuraman, oğlu Murad ailə sahibləridirlər. Hər üç ailədə Sahib həkimin nəvələri boy atır. Sahib həkimin qədirbilən həyat yoldaşı Əminə həkim - Əminə xanım nəvələrinə babalarından, onun Vətənə və insanlara böyük sevgisindən danışır.

Bizdən əbədi ayrılıb gedənləri həmişə acı təəssüflərlə xatırlayırıq. Amma dostum Ə.Xələfli demiş, yenə təskinlik yeri var:

*Yenə təskinlik yeri müdriklər, aqillərdir,*
*Yaşayan xatirələr simlərdir, nağıllərdir.*

Şair doğru deyir, nə qədər gözəl xatirələr var, aqillərin, müdriklərin daşıycısıdır. Deməк, onlar bizdən ayrılmayıb. Doğmaların sevgisi xatirələrlə birgə yaşayır. ...Bu sevgi böyüdükcə böyüyür...

***Ənvər İMANOV,***
*Tədris Departamentinin direktor müavini*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*